

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 50 (23.212)

*13 mart 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Prezident İlham Əliyev və səfir Örl Litzenberqer Azərbaycan-ABŞ əlaqələrinin yüksək səviyyədə olması və uğurlu inkişafından məmnunluq ifadə ediblər.

## Çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Çoxmənzilli binaların dam örtüklərinin təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 2 206 000 (iki milyon iki yüz altı min) manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 12 mart 2019-cu il*

## Çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 449 000 (dörd yüz qırx doqquz min) manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 12 mart 2019-cu il*

## Şahmat Federasiyası Kəngərli rayonunda görüş keçirib



***Martın 12-də Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının Kəngərli Rayon Uşaq-Gənclər Şahmat Məktəbində müəllimlər, şahmatçılar və valideynlərlə görüşü keçirilmişdir.***

Şahmat Federasiyasının sədri Seymur Talıbov çıxış edərək demişdir ki, Kəngərli muxtar respublikada ən gənc rayon olmasına baxmayaraq, bu gün burada insanların rahat yaşaması və asudə vaxtlarını səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılmışdır. Bu günlərdə yeni yaşayış binasının sakinlərin istifadəsinə verilməsi Kəngərli rayonuna göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Qeyd olunmuşdur ki, Şahmat Federasiyası hər ay muxtar respublikanın bir rayonunda valideynlər, şahmatçılar və müəllimlərlə görüş keçirir. Məqsəd onların problemlərini, təkliflərini dinləmək, şahmatın inkişafı üçün lazım olan köməkliyi göstərməkdir. Federasiyanın Gənclər və İdman Nazirliyi, rayon İcra hakimiyyətləri ilə birgə tədbirlər planı hazırlanıb, uşaqların şahmata cəlbi yönündə işlər davam etdirilir. Muxtar respublikamızda şahmatın inkişafı üçün hər bir şərait yaradılıb. Lakin buna baxmayaraq, federasiyanın işində müəyyən çatışmazlıqlar da var. Bunları aradan qaldırmaq məqsədilə görüşlər təşkil olunur, təkliflər dinlənilir. Kəngərli rayonunda da şahmatın inkişafı üçün hər bir imkan var, müasir standartlara cavab verən Şahmat Məktəbi tikilib. Bundan səmərəli istifadə edilməli və istedadlı uşaqlar üzə çıxarılmalıdır.

Tədbirdə çıxış edən Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində 2015-ci ildə rayonda



müasir standartlara cavab verən Şahmat Məktəbi inşa edilmiş, maddi-texniki baza möhkəmləndirilmişdir. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının rəhbərliyində dəyişiklikdən sonra bu sahədə xeyli canlanma yaranmışdır. Artıq cari ildə hazırlanan yeni tədbirlər planına uyğun olaraq bir sıra yarışlar təşkil olunub. Ötən il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə idmanın inkişafı ilə bağlı tapşırıqlar verilmiş, qarşıya mühüm vəzifələr qoyulmuşdur. Kəngərli Rayon İcra Hakimiyyəti də bu məsələni daim diqqətdə saxlamış, rayonda gənclərin bu sahəyə cəlbi istiqamətində işlər görmüşdür. Etiraf edək ki, işlərimizdə bəzi çatışmazlıqlar var. Çalışacağıq ki, bunları vaxtında aradan qaldıraq və şahmatın Kəngərli rayonunda inkişafına nail olaq.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxışında qeyd etmişdir ki, əvvəllər rayonlarda şahmatın inkişafı heç də ürəkaçan olmayıb. Lakin Şahmat Federasiyasındakı struktur dəyişikliyi qısa vaxtda bəhrəsini verib. Artıq şəhər və rayonlarda keçirilən yarış və turnirlərin sayı xeyli artıb, eyni zamanda rayonlarda mütəmadi olaraq görüşlər təşkil olunur.

Müzakirələrin aparılması, təkliflərin verilməsi və onların vaxtında öz həllini tapması federasiyanın işinə nə qədər məsuliyyətlə yanaşdığının, muxtar respublikada şahmata, onun inkişafına nə qədər önəm verildiyinin göstəricisidir.

Sonra federasiyanın sədr müavini Emin Hacıyev Kəngərli rayonundakı fəal şahmatçılar haqqında məlumat vermişdir.

Federasiya sədri valideyn və idmançılarla söhbət etmiş, onların təkliflərini dinləmişdir. Seymur Talıbov Şərur, Sədərək və Kəngərli rayonları arasında mütəmadi olaraq yarışların təşkil olunması üçün Tədbirlər Planının hazırlanması ilə bağlı tapşırıqlar vermişdir. Vurğulanmışdır ki, yeni tədris metodları məntiq üzərində qurulub. Uşaqların zehni inkişafında, onların savadlı, istedadlı və sağlam fərd kimi yetişməsində, güclü, iradəli bir insan kimi formalaşmasında şahmatın rolu böyükdür. Uşaqlar şahmata kütləvi şəkildə cəlb olunmalı, buna təkcə oyun kimi yanaşılmamalıdır. Eyni zamanda yaradılan bu şəraitdən hər kəs istifadə etməlidir, heç kimə məhdudiyyət qoyulmamalıdır.



Daha sonra müəllimlərlə görüşən Şahmat Federasiyasının sədri Seymur Talıbov yaradılan şəraitə baxmayaraq, Kəngərli rayonunda şahmatın inkişafı ilə bağlı bəzi çatışmazlıqların olduğunu bildirmişdir. Federasiya sədri demişdir ki, keçirilən yarışda rayon komandası 6-cı olmuşdur. Bu yaxınlarda Astara şəhərində keçirilən seçmə yarışlarda iştirak edən 28 nəfərlik heyətdə cəmi bir Kəngərli rayon şahmatçısı iştirak etmişdir. Həmin idmançı da yarışda uğur qazana bilməmişdir. Müəllimlərlə görüşümüzdə məqsəd sizin fikirlərinizi, təkliflərinizi dinləmək, nöqsanların aradan qaldırılması üçün çıxış yolu tapmaqdır. İlin sonunda hər rayonun nəticəsinə baxılacaq. Əgər bizi qane edəcək nəticə olmazsa, o zaman həmin müəllimlərlə işimizə son verəcəyik.

Diqqətə çatdırılmışdır ki, hazırda muxtar respublikanın bütün orta məktəblərində şahmat dərsləri keçilir, şahmatçılar, eləcə də müəllimlər üçün hər bir imkan yaradılıb. Bundan səmərəli istifadə edib istedadlı uşaqları üzə çıxarıb şahmat məktəblərinə cəlb etmək lazımdır. Eyni zamanda elektron lövhə vasitəsilə digər məktəblərlə yoldaşlıq görüşləri keçirilməlidir. Şərur-Sədərək-Kəngərli rayonları arasında keçiriləcək yarışlar üçün əlavə fond da ayrılacaq. Məqsədimiz uşaqları şahmata cəlb etməkdir. Bu işdə müəllimlərin üzərinə mühüm vəzifələr düşür. Müəllimlər yaradılan şəraitdən səmərəli istifadə etməli, istedadlı şahmatçıların yetişdirilməsi qayğısına qalmalıdırlar.

Görüşdə Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev vurğulamışdır ki, federasiyanın yeni kitabı işıq üzü görəcək və bütün rayon məktəblərinə paylanılacaqdır.

Kəngərli Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin direktoru Rauf Heydərov və Qarabağlar kənd tam orta məktəbinin müəllimi Tutu Əhmədova yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıqlarını bildirmişlər.

Şahmat Federasiyasının sədri Seymur Talıbov demişdir ki, "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə qeyd olunmuş nöqsanların aradan qaldırılması üçün müəllimlərlə tez-tez görüşlər keçiriləcək. Şahmat Məktəbində heç kəsə məhdudiyyət qoyulmamalı, məktəblilərin öz aralarında oyun oynamaları üçün əlavə sinif otaqları hazırlanmalıdır. Cəmiyyətə şahmatı doğmalaşdırmaq lazımdır. Federasiya olaraq biz də keçirilən yarışları, bu cür tədbirləri mətbuatda, sosial şəbəkələrdə işıqlandıraraq şahmatı cəmiyyətə sevdirir, doğmalaşdırırıq. Çünki muxtar respublika rəhbəri tərəfindən idmana hər zaman diqqət və qayğı göstərilir.

Görüşdən sonra federasiya sədri Şahmat Məktəbinin şəraiti ilə tanış olmuş, tapşırıqlarını vermişdir.

**"Şərq qapısı"**



*Naxçıvan Muxtar Respublikasının əlverişli iqlim şəraiti alternativ və bərpaolunan enerji növlərinin inkişafına möhkəm zəmin yaradır. Bu məqsədlə yeni texnoloji avadanlıqlar əsasında elektrik stansiyaları tikilib istifadəyə verilir. Hazırda Naxçıvanın ümumi enerji istehsalının 70 faizdən çoxunu alternativ və bərpaolunan enerji təşkil edir. Muxtar respublikada bu sahədə qazanılmış uğurları bərpaolunan enerji mənbələrindən geniş istifadə edən Avropa İttifaqı ölkələrindən Avstriya, İsveç, Danimarka kimi ölkələrlə müqayisə etmək mümkündür.*

# Muxtar respublikada alternativ və bərpaolunan enerji mənbələrindən istifadə imkanları artırılır

Məlum olduğu kimi, blokada şəraitində saxlanılan Naxçıvan Muxtar Respublikasında müstəqilliyin ilk illərində böyük enerji böhranı yaşanmış, qonşu ölkələrdən idxal edilən elektrik enerjisi hesabına bu problemin qismən aradan qaldırılmasına nail olunsa da, enerji əhaliyə uzun illər fasiləli şəkildə verilirdi. Müstəqillik illərindən, təxminən, 15 il sonra – 2005-2006-cı illərdə enerji təhlükəsizliyinin təmini və daxili tələbatın etibarlı mənbələr hesabına ödənilməsi üçün müxtəlif dövlət proqramları qəbul olunub, onların həyata keçirilməsi təmin edilib.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 2 may tarixli "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına uyğun olaraq 2005-2006-cı illərdə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən turbinlər qaz yanacağı ilə iş rejiminə keçirilib, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası çox qısa müddətdə – cəmi 8 ay ərzində tikilib quraşdırılıb, 2005-ci ildə muxtar respublikada Heydər Əliyev Su Anbarı üzərində gücü 4,5 meqavat olan yeni su elektrik stansiyasının tikintisi başa çatdırılıb, 2010-cu ildə Azərbaycanda ilk derivasiyatipli 22 meqavat güclü Biləv Su Elektrik Stansiyası istismara verilib. Sonrakı illərdə muxtar respublikada alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasına uyğun olaraq 2014-cü ildə 20,5 meqavat güclü "Arpaçay-1" və 1,4 meqavat güclü "Arpaçay-2" Su Elektrik stansiyaları tikilib istismara verilib.

Hazırda muxtar respublikada mövcud olan 8 elektrik stansiyasından 5-i su, 2-si istilik və Günəş Elektrik stansiyalarıdır. Həmin elektrik stansiyalarının 7-si müstəqillik dövründə tikilib istifadəyə verilib. Muxtar respublikanın enerji ilə təminatında əsas layihə olan 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikinti işləri isə hazırda davam etdirilir.

Son illərdə muxtar respublikanın enerji ilə təminatında su resursları ilə yanaşı, günəş enerjisi ilə qidalanan stansiyaların tikintisi də geniş vüsət alıb. Görülən işlər yaxın gələcəkdə muxtar respublikanın ümumi enerji istehsalının alternativ və bərpaolunan enerji hesabına ödənilməsinə xidmət edir.

Qeyd edək ki, muxtar respublikada 20 meqavatlıq ilk Günəş Elektrik Stansiyası 2015-ci ilin dekabrında ölkə Prezidentinin iştirakı ilə istifadəyə verilib. 2017-ci ilin sentyabr ayında 2 meqavatlıq ikinci Günəş Elektrik Stansiyasının açılışı olub. Bu il fevral ayının 22-də isə Kəngərli rayonu ərazisində 2 meqavat gücündə yeni Günəş Elektrik Stansiyasının qurulması bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Stansiyada dünya standartlarına cavab verən son model müasir panellər quraşdırılıb. Şüşətipli bu panellərin elektrik verilişi alüminium panellərə nisbətən daha yüksəkdir. İl ərzində 3 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcək stansiyada tikinti-quraşdırma işləri yüksək keyfiyyətlə aparılıb. Həmin stansiyanın ətrafında günəş panelləri ilə işləyən yeni subartezian quyusu qazılıb, 2 günəş paneli quraşdırılıb. Bu da Günəş Elektrik Stansiyasının yaxınlığında salınan badam bağının və yaşıllıq zolağının su təminatının ödənilməsinə imkan verəcəkdir. Günəş panelləri ilə çalışan yeni subartezian quyusu muxtar respublikada kənd təsərrüfatı sahəsində müasir texnologiyaların tətbiqi baxımından ən son yenilikdir.

Ümumilikdə, Naxçıvan Muxtar Respublikasında Günəş Elektrik stansiyalarının gücü 24 meqavata, illik istehsal gücü isə 36 milyon kilovat-saata çatdırılıb.

Muxtar respublikada elektroenergetika sahəsində müasir infrastruktur yaradılması vacib amildir. Buna görə də yeni elektrik stansiyalarının tikintisi zamanı ən son texnoloji avadanlıqlar quraşdırılır, layihə işləri Qərb ölkələrinin bu sahə üzrə ixtisaslaşmış enerji firmaları tərəfindən həyata keçirilir.

Elektroenergetika sahəsində ixtisaslı kadr hazırlığına da xüsusi diqqət yetirilir. Bu sahədə reallaşdırılan tədbirlərin nəticəsidir ki, muxtar respublikada elektrik stansiyalarının tikintisi və yenidən qurulması, elektrik təchizatı avadanlıqlarının quraşdırılması, bütövlükdə, yerli mütəxəssislər tərəfindən həyata keçirilir.

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Energetika Xidmətinin**
**mətbuat xidməti**

# Fevral ayında 467 abunəçi internetlə təmin olunub

Muxtar respublikada yeni texnologiyaların tətbiqi, internet resurslarından istifadə imkanlarının genişləndirilməsi, internet və teleradio xidmətlərinin keyfiyyətlərinin yüksəldilməsi ilə əlaqədar tədbirlər uğurla davam etdirilir.

Fevral ayında Şərur rayonunun Kərimbəyli Kənd Mərkəzinin açılışı olmuş, kənd mərkəzində yeni Rabitə Evi istifadəyə verilmişdir. Burada quraşdırılan yeni nəsil 384 nömrəlik Avtomat Telefon Stansiyası Kərimbəyli kəndində 241 abonentə və 106 internet istifadəçisinə xidmət edir. Şərur rayonunun Kərimbəyli poçt bölməsi yeni binaya köçürülmüş, bütün işçi kompüterlər "Naxçıvanpoçt"un şəbəkəsinə qoşulmuş və digər lazımi avadanlıqlarla təmin olunmuşdur. Nömrə tutumlarının artırılması nəticəsində ötən ay 169 yeni telefon nömrəsi istismara verilmişdir.

Muxtar Respublikada yeni nəsil texnologiyaların tətbiqi ilə əlaqədar nəzərdə tutulan 5 mərhələdən ibarət layihənin artıq 4-cü mərhələsi başa çatdırılıb. Ötən ilin noyabr ayında Culfa rayon ərazisində yeni nəsil telekommunikasiya sisteminin qurulması ilə əlaqədar Çin Xalq Respublikasının "Huawei" şirkəti ilə müqavilə imzalanmış, bu ilin fevral ayında avadanlıqlar muxtar respublikaya gətirilmişdir. Hazırda avadanlıqların montaj quraşdırma işləri davam etdirilir. 2019-cu ilin üçüncü rübünədək layihənin başa çatdırılması nəzərdə tutulur.

Fevral ayında muxtar respublika ərazisində, ümumilikdə, 6270 metr fiber-optik kabel xətti çəkilmiş, genişzolaqlı ADSL texnologiyası vasitəsilə 467 yeni abunəçi internetlə təmin olunmuş, Naxçıvan Muxtar Respublikasının "Elektron hökumət" portalında yenilənmə işləri davam etdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Rabitə və Yeni Texnologiyalar Nazirliyinin**
**mətbuat xidməti**

# Zəhmət uğurun açarıdır

***Muxtar respublikada dövlətin güzəştli kreditlərindən istifadə imkanlarının təşviq edilməsi və təkmilləşdirilməsi qadınların da sahibkarlıq fəaliyyəti ilə məşğul olmalarına stimul verib. Hazırda sahibkar qadınlar iqtisadiyyatın müxtəlif sahələrində çalışır, muxtar respublikamızın sosial-iqtisadi inkişafına öz töhfələrini verirlər.***





Muxtar respublikamızda qadın sahibkarlarımız çoxdur. Onlardan biri də bacarığı, işgüzarlığı ilə seçilən "Zümrüd Tikiş", "Zümrüd Geyim" Məhdud Məsuliyyətli cəmiyyətlərinin direktoru Mehrəngiz Əkbərovadır. O, ali təhsillidir. 23 il şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olub.

Sahibkar xanımla söhbət zamanı bildirir ki, ulu öndərimizin əsasını qoyduğu dövlət qadın siyasəti istiqamətində ardıcıl tədbirlər Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Müxtəlif treninqlər təşkil edilir, biznes sahələri yaratmaq üçün güzəştli kreditlər verilir, qadınların sahibkarlığa cəlb olunması diqqət mərkəzində saxlanılır. Sahibkarlar üçün ayrılan güzəştli kreditlərdən onlar da səmərəli istifadə edirlər. Bu isə qadınların iqtisadi sahədə fəallıqlarını daha da artırır.

Müsahibim qeyd etdi ki, sahibi olduğu müəssisə 1997-ci ildə 6 işçi və Rusiya istehsalı olan 10-12 avadanlıqla fəaliyyətə başlayıb. Naxçıvan əhalisinin maddi durumunun o qədər də yaxşı olmadığı bir vaxtda belə bir işə başlamaq çətin olsa da, biz dövlətimizin dəstəyi ilə uğur qazanmağa nail olduq.

Mehrəngiz xanım bu istehsal sahəsinin muxtar respublikada yaradılan ilk özəl müəssisələrdən biri olduğunu vurğulayaraq deyir ki, illər öncə bu sahədə vəziyyət tamamilə başqa idi. Övladları orta məktəbdə təhsil alan valideynlər təkcə dərslik çatışmazlığından əziyyət çəkmir, həm də geyim problemi ilə üzləşirdilər. Blokada şəraitində yaşayan muxtar respublikamız inkişaf mərhələsinə qədəm qoyduğu bir vaxtda belə bir müəssisənin yaradılması bütün ailələrə maddi və mənəvi dəstək oldu. Ulu öndərin siyasi xəttinin layiqli davamçısı, dövlətimizin başçısı cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun bütün sahələrdə olduğu kimi, sahibkarlığın inkişafına göstərdikləri diqqət və qayğı işimizi daha yaxşı görməyimizə stimul verdi. Hazırda "Zümrüd Tikiş" MMC-də Yaponiya və Türkiyə istehsalı olan 70 adda ən müasir biçim, ölçü, ütü və tikiş avadanlıqları quraşdırılıb, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. Yeni istehsal sahəsinin yaradılması daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsul istehsalı ilə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb.

Müəssisə rəhbəri onu da deyir ki, 2010-cu ildə 560 min manat vəsait ayrılması sayəsində 2011-ci il sentyabrın 9-da gündəlik istehsal gücü 150 dəst kostyum olan müəssisənin yeni binası və kostyum istehsalı sahəsi istifadəyə verilib. Müəssisənin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirak etməsi, tövsiyələri gələcək fəaliyyətimizə işıq salıb. Kostyum istehsalı sahəsi fəaliyyətə başlayanadək bu məhsulun çox hissəsi idxal yolu ilə əldə olunurdu. Lakin bu istehsal sahəsinin yaradılması ilə həmin məhsullara olan tələbat daxili imkanlar hesabına ödənilməyə başlandı. Sifariş verilən xüsusi geyim formalarının kompleks şəkildə istehsal edilməsi məqsədilə 2013-cü ildə müəssisədə yeni – köynək istehsalı sahəsi yaratmağa nail olduq. İstehsal gücü gündə 1000 ədəd köynək olan yeni istehsal sahəsi daxili bazarın tələbatını tamamilə ödəmə gücünə malikdir.

Mehrəngiz xanım dövlət dəstəyindən yararlanaraq ötən il daha bir uğura da imza atıb. O bildirir ki, yeni bir istehsal sahəsi yaratmaq üçün Sahibkarlığın İnkişafı Fondundan 320 min manat güzəştli kredit ayrılıb. Müəssisə gündəlik 800-1000 dəst olmaqla, alt paltarları istehsal etmək gücünə sahibdir.

Onu da qeyd edək ki, Mehrəngiz Əkbərovanın səmərəli fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə "Tərəqqi" medalı ilə təltif edilib. Mehrəngiz xanım əməyinə verilən bu yüksək qiymət üçün dövlətimizə minnətdarlığını bildirərək sevincini bizimlə bölüşür: "Uğurun açarı zəhmətdədir. Sahibkarlıqla məşğul olan hər bir kəs ailəsində sevgi, xoşbəxtlik, həmrəylik olanda işlərində də uğur qazanır. Mənim də əldə etdiyim nailiyyətlərin səbəbkarlarından biri ailəmdir".

Onu da bildirək ki, müəssisə rəhbəri 2015-ci ildə Naxçıvan Muxtar Respublikasında keçirilən "Ən fəal işəgötürən" müsabiqəsi üzrə ikinci yerə sahib olub, "Biznesdə uğur" mükafatına layiq görülüb.

Bu gün həmsöhbət olduğumuz zəhmətkeş, bacarıqlı, qayğıkeş ana, həm də iş qadını olan müsahibimin 22 illik zəhmətinin bəhrəsi ilə bağlı söylədiklərindən və gördüklərimizdən belə qənaətə gəlmək olar ki, yaradılan şəraitdən düzgün istifadə edən hər bir insan muxtar respublikamızın inkişafına öz töhfələrini verməklə yanaşı, həm öz ailəsinin, həm də bir çox ailələrin firavan həyat sürmələrinə geniş imkanlar aça bilər.

Bir sözlə, Naxçıvanda insanların rifahının yaxşılaşdırılması üçün yaradılan hərtərəfli şərait qədim yurdun sakinlərinin ömrünün hər gününə rahatlıq gətirir. İstər qızmar yayda, istərsə də sərt qış aylarında bu qədim yurd yerində yaşamağa, yaratmağa dəyər.

**Ramiyyə ƏKBƏROVA**

# Yeni inzibati binanın inşası davam etdirilir



Kənd təsərrüfatının inkişafında və ərzaq təhlükəsizliyinin təmin olunmasında baytarlıq sahəsinin oynadığı mühüm rol nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti və tabeliyindəki qurumların iş şəraiti yaxşılaşdırılır. Ötən ilin aprel ayından etibarən Babək rayonu ərazisində Süni Mayalanma Mərkəzinin və Babək Rayon Baytarlıq İdarəsi üçün yeni inzibati binanın inşa olunması da həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

2018-ci ilin noyabr ayından etibarən tikintisinə başlanılan Baytarlıq İdarəsi üçün yeni inzibati bina zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq. Hazırda binanın dam örtüyü vurulur, rabitə və elektrik xətlərinin çəkilişi aparılır.

Qeyd edək ki, müasir layihə əsasında inşa olunan binanın birinci mərtəbəsində dərman və boyaq maddələrinin saxlanılması və qəbul otaqları, eləcə də arxiv yerləşəcək. İkinci mərtəbədə isə virusoloq-həkim, terapevt-həkim, epizootik-həkim, süni mayalanma və laborant-sanitar otaqları, laboratoriyalar fəaliyyət göstərəcək.

**Xəbərlər şöbəsi**

*Jurnalist araşdırması*

# Bir binanın dünənindən bu gününə

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin fəaliyyət göstərdiyi binanın tarixçəsi barədə yazı hazırlamaq üçün apardığım araşdırmalar zamanı şəhərimizin qədim tarixə malik digər bir ünvanı, Naxçıvan şəhərinin Atatürk küçəsindəki 6 nömrəli bina barədə də maraqlı faktlara rast gəldim. Öyrəndim ki, Cəmşid Naxçıvanskinin ev-muzeyinin də yerləşdiyi bu bina qədim tarixə, zəngin mədəniyyətə və dövlətçilik ənənələrinə malikdir. Bu barədə daha geniş məlumat əldə etmək məqsədilə ötən günlərdə Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində və görkəmli hərbi xadimin ev-muzeyində oldum. Bundan əlavə, AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Yeni və ən yeni tarix şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin Kəngərli sülaləsindən olan Naxçıvan generalları ilə bağlı yazdığı elmi-publisistik məqalələrini nəzərdən keçirdim, şəhərin yaşlı sakinləri ilə söhbət etdim.***



Məlum oldu ki, orijinal üslubu ilə seçilən, şəhərimizin ümumi görünüşünə yaraşıq gətirən bu tarixi bina XIX əsrin ikinci yarısında naxçıvanlı ustalar tərəfindən ucaldılıb. Zirzəmi ilə birlikdə üç mərtəbədən ibarət olan tikilinin inşasında Ehsan xan Naxçıvanskiyə məxsus iki zavodun kərpiclərindən istifadə edilib. Deyilənə görə, tikinti materialının üzərində 1 və 2 rəqəmlərinin yazılması da məhz buna işarədir. Ümumiyyətlə, muxtar respublikamızda o dövrə məxsus binaların əksəriyyətinin həmin zavodlarda istehsal edilən kərpiclərlə inşa olunduğu məlumdur.

Şəhərin yaşlı sakinləri tarixi keçmişimizə işıq salan həmin binanı "Cəfərqulu xanın malikanəsi" də adlandırırlar. Onların dediyinə görə, 1895-ci il avqustun 23-də Naxçıvanda dünyaya göz açan Kəngərli nəslinin sonuncu generalı Cəmşid Naxçıvanski 12 il burada yaşayıb, anası Fərəntac xanımdan ana dilini, bu dildə yazmağı, dayəsi Anna Nikolayevnadan isə rus və fransız dilində danışmağı öyrənib. Təbii ki, onun bacarıqlı hərbçi kimi yetişməsində mənsub olduğu ailədən, xüsusilə də atası Cəfərqulu xandan aldığı təlim-tərbiyənin böyük rolu olub.

Tarixdən yaxşı məlumdur ki, 1918-ci il iyunun əvvəllərində Türkiyə ordusunun 9-cu və 11-ci diviziyaları İrəvan yaxınlığındakı Uluxanlıdan hərəkət edərək iyunun 11-də Naxçıvana daxil olub. Türk qoşunları Naxçıvanın könüllülərdən ibarət taborları ilə birlikdə erməni daşnaklarını darmadağın ediblər. Bölgəni erməni zülmündən qurtarmaq üçün Naxçıvanda Araz-Türk Respublikası yaradılıb. Həmin hadisələrə haqqında danışdığımız bu bina da şahidlik edib. Belə ki, Araz-Türk Respublikasının qərargahı məhz bu binada yerləşib, bir sıra qərarların qəbulu və müzakirəsi burada aparılıb. Onu da xüsusi qeyd etmək lazımdır ki, bu proses qısa müddəti əhatə etməsinə baxmayaraq, Araz-Türk Respublikası Naxçıvanın sonrakı taleyində mühüm rol oynayıb. Haqqında söhbət açdığımız binada 1921-ci ildə körpələr evi yerləşib, 1936-cı ildən 1985-ci ilədək Naxçıvan Şəhər Poliklinikası, həmçinin 1950-ci illərdə şəhər komsomol komitəsi, rabitə və poçt mərkəzi, 1960-cı illərdə prokurorluq orqanı fəaliyyət göstərib.

Yaşı 80-ni adlamış Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Sübhü Kəngərli binanın həmin dövrünü belə xatırlayır:

– Ötən əsrin 50-ci illərində Atatürk küçəsində (Həmin dövrdə binanın yerləşdiyi ərazi Kirov küçəsi adlanıb!) yerləşən 6 nömrəli bina ilə əlaqəm çox olub. Yaxşı yadımdadır, o dövrdə şəraitsizlik üzündən uzaq yerlərdə yaşayan qohum-əqrəba ilə gec-gec ünsiyyət qura bilirdik. Bunun üçün şəhər sakinləri məhz bu binada qurulan rabitə xidmətlərindən istifadə edərdilər. Xalam Aminə xanım Ordubadda yaşadığı üçün anam onunla əlaqə saxlamaq məqsədilə tez-tez həmin binaya gedib-gələrdi. 3-cü sinifdə oxuyanda anam məni yanına çağırıb, oğlum, artıq böyümüsən, xalana yazdığım məktubu aparıb göndərə bilərsən, – deyib əlindəki kağızı mənə tərəf uzatdı. Sözün düzü, ilk dəfə belə məsuliyyətli iş dalınca getdiyimdən poçt yerinə çatanda məktubu hara qoyacağam, – deyə çox düşündüm. Orada çalışan işçilərdən biri mənə məktubu yaşıl qutunun kənarındakı deşikdən içəri atmağı məsləhət gördü. Həmin gündən sonra xalama yazılan məktubları mən yollayırdım. Ancaq hər dəfə geri dönəndə məni bir sual möhkəm düşündürürdü. Özözümə deyirdim ki, axı necə olur ki, mən o qutuya məktubu Naxçıvan şəhərində atıram, xalam da Ordubadda götürür. Qəribədir, görəsən, hansı fövqəladə qüvvə o məktubu ünvanına çatdırır. Lakin böyüyəndən sonra bir vaxtlar mənə sirli-sehrli gələn hadisənin əsl mahiyyətini dərk etdim. İndi o illəri düşünəndə yaddaşıma bir o binadakı yaşıl qutu, bir də görkəmli dramaturq Cəlil Məmmədquluzadənin "Poçt qutusu" hekayəsinin qəhrəmanı Novruzəli düşür. Həqiqətən də, görkəmli yazıçı o dövrdə dünyəvi elmi-mədəni tərəqqidən geri qaldığımızı çox gözəl təsvir edib.

Sübhü Kəngərli həmin dövrdə burada yerləşmiş şəhər poliklinikasının da fəaliyyətindən danışaraq bildirdi ki, ölkədə ixtisaslı həkimlərin az olduğu bir vaxtda poliklinikada Bətulə Abdullayeva adlı savadlı, işini çox gözəl bilən diş həkimi çalışırdı. Naxçıvanın hər yerindən onun yanına xəstələr gəlirdi. Anam məni də bir dəfə onun yanına diş çəkdirməyə aparmışdı.

Qeyd edək ki, ulu öndərimiz Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə Cəmşid Naxçıvanskinin anadan olmasının 85 illik yubileyi ilə əlaqədar 1981-ci il 8 avqust tarixli Qərar imzalayıb. Həmin qərarla 1982-ci il oktyabrın 22-də haqqında bəhs etdiyimiz binada generalın ev-muzeyi fəaliyyətə başlayıb. Muzey ilk vaxtlar binanın birinci mərtəbəsində kiçik bir otaqda yerləşirmiş. Lakin 1985-ci ildə Naxçıvan Şəhər Poliklinikası ayrı binaya köçürüldükdən sonra mədəniyyət



ocağının səmərəli fəaliyyəti üçün daha geniş imkanlar açılıb, 1987-ci ildən etibarən muzeyin ekspozisiya zalı da fəaliyyətə başlayıb. Yeni yarandığı dövrdə cəmi 300 eksponatı olan muzeyin fondunda bu gün 5360 eksponat qorunub saxlanılır.

Müstəqillik illərində həmin binada muzeylə bərabər bir sıra dövlət əhəmiyyətli idarələr, o cümlədən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı, 3 nömrəli musiqi məktəbi, Xalq yaradıcılığı emalatxanası və digər qurumlar fəaliyyət göstərib.

Ötən il iyun ayından başlayaraq həmin binada yenidənqurma işləri aparılır, tikilinin tarixi görkəminin və memarlıq quruluşunun saxlanılmasına xüsusi diqqət yetirilir. İnşaat işləri başa çatdıqdan sonra binada Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti və Cəmşid Naxçıvanskinin ev-muzeyi yerləşəcək. Binanın ətrafında da abadlıq işləri aparılacaq, yeni park salınacaq. Cəfərqulu xanın malikanəsi olan bu binanın həyətində vaxtilə gözoxşayan yaşıllıq, gül-çiçək guşələri də olub. Elə bərpadan sonra burada parkın salınması da keçmişimizdən bu günümüzədək qorunub saxlanılan binanın sahibinin də ruhunu şad etmiş olar. Yeni parkda Naxçıvan Muxtar Respublikasının turizm marşrutlarının xəritəsini və tarixi abidələrinin görüntülərini əks etdirən stendlər qoyulması nəzərdə tutulur.

*Aqillər: tarix elə bir ortaq sərvətdir ki, ondan hər xalq öz dəyərinə görə pay götürür, – deyiblər. Bu gün Naxçıvanın tarixi keçmişinə dərin izlər salan, Kəngərlilər sülaləsinə məxsus olan Atatürk küçəsindəki 6 nömrəli binanın hər guşəsində xalqımızın bu qiymətli sərvətinin izləri sezilir. Həmin binanı qoruyub saxlayaraq gələcək nəsillərə ərməğan etmək isə xalqın keçmişinə verilən ən böyük dəyərin təzahürü, tarixi keçmişimizin bərpası istiqamətində atılan mütərəqqi addımlardandır.*

✍ **Nail ƏSGƏROV**

***AMEA Naxçıvan Bölməsində Elm günü ilə əlaqədar olaraq "Elm həftəsi"nin ilk tədbiri keçirilib.***

## "*Elm həftəsi*"nə start verilib



Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev Prezident cənab İlham Əliyevin "Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında" 2018-ci il 9 aprel tarixli Sərəncamına əsasən hər il martın 27-nin ölkəmizdə Elm günü kimi qeyd ediləcəyini bildirib. Respublikamızda elmə göstərilən diqqət və qayğıdan danışan akademik əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu ənənənin bu gün ölkə başçısı tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Qeyd olunub ki, 2002-ci il avqust ayının 7-də ümummilli liderin təşəbbüsü ilə yaradılan AMEA Naxçıvan Bölməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində ən son avadanlıqlarla təchiz edilib. Bölmədə Naxçıvanın tarixi, etnoqrafiyası, arxeologiyası, ədəbiyyatı, folkloru, bioresursları və təbii ehtiyatlarının araşdırılmasında elmi istiqamətlər müəyyən edilib, müvafiq profillərə uyğun elmi-tədqiqat işləri yerinə yetirilərək mühüm nəticələr əldə olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxışında qeyd edib ki, Azərbaycan Respublikasında elmin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Dövlətin gələcəyi, iqtisadi, siyasi və hərbi qüdrəti onun elmi potensialı ilə bilavasitə bağlıdır.

Vurğulanıb ki, Azərbaycanda elmin inkişafı ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu öndərin ardıcıl diqqəti sayəsində Azərbaycan elminin mükəmməl təşkilati strukturu formalaşıb, elmi araşdırmaların həyata keçirilməsi sistemli xarakter alıb. Görkəmli dövlət xadiminin elmin inkişafına yönəlmiş fəaliyyəti dövlət başçısı cənab İlham Əliyevin də siyasətinin əsasını təşkil edir. Dövlət başçısının 2016-cı il 9 avqust tarixli Fərmanına, əsasən Azərbaycan elminin inkişafında ilk dəfə olaraq "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib.

Bildirilib ki, elmin davamlı inkişafına dəstək Naxçıvan Muxtar Respublikasında da daim diqqətdə olub. AMEA Naxçıvan Bölməsinin maddi-texniki bazasının formalaşması, inzibati binalarının tikilib istifadəyə verilməsi, təşkilati strukturunun yenidən qurulması muxtar respublika rəhbərinin bu sahəyə ardıcıl diqqətinin bariz ifadəsidir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 23 avqust tarixli Fərmanı ilə elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublikası Mükafatlar Komissiyasının yaradılması, elmi əhəmiyyəti ilə seçilən əsərlər və memarlıq layihələrinin dövlət mükafatlarına layiq görülməsi elmin inkişafına verilən dəyərin göstəricisidir.

Surə Seyid vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi yanında Bilik Fondunun təsis edilməsi və qısa müddətdə uğurlu fəaliyyəti aktual mövzulara həsr olunmuş onlarla kitabın işıq üzü görməsinə səbəb olub, muxtar respublikada elmin inkişafına göstərilən diqqət və qayğı bundan sonra da öz töhfələrini verəcək.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli institutun 2009-2018-ci illərə aid elmi fəaliyyəti, həmin institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyeva isə muxtar respublikada qadın alimlərin fəaliyyəti barədə məruzə ilə çıxış ediblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallara aydınlıq gətirilib, sözügedən institutun fəaliyyətini əks etdirən sərgi ilə tanışlıq olub.

✍ **Səbuhi HƏSƏNOV**

## Ali təhsil ocağının əməkdaşı EURAS təhsil sərgisində iştirak edib

*Bu günlərdə Türkiyə Respublikasının İstanbul şəhərində Avrasiya Universitetlər Birliyinin (EURAS) təhsil sərgisi təşkil olunub.*

Sərgidə "Naxçıvan" Universitetinin tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu və Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Müşərrəf Məmmədova da iştirak ediblər. Tədbirdə Türkiyə Respublikasının gənclər və idman naziri, təhsil təşkilatlarının rəhbərləri, 150-dən çox universitet təmsil olunub.

Naxçıvan ali təhsil müəssisələrinin təşkil etdiyi sərgi böyük maraq doğurub. Sərgiyə baxışdan sonra universitetin tədris və tərbiyə işləri üzrə prorektoru Hüseyn Bağırsoylunun EURAS-ın İstanbul Universiteti üzrə təmsilçisi doktor Mustafa Aydınla görüşü olub. Görüş zamanı "Naxçıvan" Universitetinin beynəlxalq əlaqələri haqqında ətraflı məlumat verilib, universitetlərarası əməkdaşlıq məsələləri müzakirə olunub.

**Xəbərlər şöbəsi**

## Ədəbi mühitin inkişafı diqqətdədir

*Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi Naxçıvanda yazıb-yaradan qələm sahibləri ilə görüşlərin təşkilini diqqətdə saxlamış, müxtəlif tədbirlər keçirilmişdir.*

Fevral ayında Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasında şairlərlə şagirdlərin görüşü olmuşdur. Birlik Gənclər Fondu ilə birgə "Nəsimi həftəsi"nin bağlanış tədbiri və müsabiqə, Təhsil Nazirliyi ilə birgə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində məktəblilərin inşa yazı, rəsm və şeir müsabiqəsi, Naxçıvan Dövlət Universiteti ilə birgə Beynəlxalq Yazıçılar Günü münasibətilə poeziya axşamı təşkil etmişdir. Mədəniyyət Nazirliyi ilə birgə Beynəlxalq Ana Dili Günü münasibətilə hazırlanmış tədbir, AMEA Naxçıvan Bölməsi ilə birgə Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illiyi münasibətilə keçirilən elmi konfrans və ədəbi-bədii gecə də maraqla qarşılanmışdır.

Oxunması zəruri olan kitablar siyahısından Məhəmməd Tağı Sidqinin "Məktəb hekayələri" və Cəlil Məmmədquluzadənin "Hekayələr" kitabları ilə bağlı televiziya verilişləri hazırlanmışdır.

***Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi***

*Mütəxəssis sözü*

# Limon xüsusi aqrotexniki qulluq tələb edir

*Elmi ədəbiyyata belə məlumdur ki, limonun vətəni qədim Hindistan torpağıdır. Əfsanəvi hind yoqları onu sağlamlığın qorunmasında güclü bir vasitə sayırlar. Onların dediklərinə görə, hər adam özünü gündə bir limon yeməyə və bir limonun şirəsini içməyə öyrətməlidir.*



XVIII əsrdə ingilis donanmasında uzun səfər zamanı matroslara gündə 30 qram limon şirəsi qəbul etmək məcburi sayılırdı ki, bu da onları sinqa xəstəliyindən qoruyurdu. Keçən əsrdə limonu taun xəstəliyindən qoruyan və ilan zəhəri əleyhinə vasitə hesab edirdilər. Qafqazda belə bir qədim əfsanə var ki, hökmdarın sevimlisi ağılsız hərəkət edərək qəzəbə düçar olur və həbsxanaya düşür. Ona həbsxanada yemək seçməyi təklif edirlər. Məhbus limon seçir və bu, hamının təəccübünə səbəb olur. O deyir ki, limonun ətri ruh yüksəkliyi yaradır, qabığı və toxumları ürəyə faydalıdır, ləti qidadır, şirəsi isə susuzluğu yatırır.

Vətənimiz Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında VIII əsrdən başlayaraq limon bitkisi əkilib-becərilib, insanlar tərəfindən həm qida rasionunda və həm də ticarətdə satışına böyük önəm verilib.

Muxtar respublikanın Ordubad rayonunda bu bitkinin əkilib-becərilməsi peşəkarlıqla həyata keçirilir. Dünyanın müxtəlif ölkələrində becərilən limon meyvəsinin kəmiyyət və keyfiyyət göstəriciləri Ordubad rayonunda hasilə gətirilən limonla rəqabət apara bilmir.

Limon vegetativ və generativ üsulla artırıla bilir. Ordubadda vegetativ artırma üsullarına böyük önəm verildiyindən bunlara nəzər salaq: *Qolayırma üsulu.* Bir və ya 2 illik budaq gövdəyə bitişik yerdən 3-5 santimetr aralı 2 santimetr enində qabıq gövdənin üzərindən alınır. Bu vaxt 0,5-0,8 santimetr ölçüdə qabıq gövdədə saxlanılır. Ağzıaçıq 0,8-1 litrlik konserv qabı götürülüb yan və oturacaq hissəsi birtərəfli kəsilir, alt hissədə genişləndirilmə aparılır. Soyulmuş qabığın gövdəyə tərəf hissəsi pambıq parça ilə sarınır və konserv qutusu aralanaraq budaqcığın parça ilə sarınmış hissəsi qutunun oturacaq hissəsinə söykənir. Qutu adi iplə bağlanılır və 3/4 nisbəti hissəsinə qədər qida qarışığı ilə doldurulur. Diqqət yetirilməlidir ki, budaqcığın kəsilmiş qabıq hissəsi qabın içərisində qalsın. Beçəyə qoyulan budaqcığın qida mühitinin yaradılması üçün qida qarışığından istifadə olunmalıdır (Qida qarışığı hazırlamaq üçün 3 hissə torpaq və 1 hissə çürümüş üzvi maddə götürülüb qarışdırılır).

Beçənin su rejiminin tənzimlənməsi ana kolda olduğu kimidir. Suvarmadan sonra qida mühiti qutunun 3/4 hissəsindən aşağı düşərsə, əlavə qida qarışığı verilməlidir. Bu iş may ayının əvvəlindən iyun ayının üçüncü ongünlüyünə qədər davam etdirilir. Qutuda ehtiyatla müayinə aparılaraq beçənin cil verməsi müəyyənləşdirilməlidir. Əgər beçədə əkin üçün köklər formalaşıbsa, onda ehtiyatla iti alətlə ayrılıb, daimi becəriləcək dibçəklərə köçürülür.

*Qələmlə (çubuqla) artırma.* Birillik budaqcıqlardan 20 santimetr uzunluqda kəsilir və qida mühiti ilə tam zənginləşdirilmiş əkin üçün yararlı torpaq sahəsində hazırlanmış ləklərdə 10 santimetr dərinlikdə sancılıb üzəri polietilen örtüklə örtülür. Nəzərə almaq lazımdır ki, sahə həmişə nəm olmalıdır. Örtük altında olan qələmlər inkişafa başlayana qədər rütubət balansı 70 faiz miqdarında tənzimlənməlidir. Suvarma aparılarkən örtüyün bir küncündən azacıq qaldırıb su ötürmək lazımdır. Qələmlərin inkişafa başlamasının mütəmadi olaraq fenoloji müşahidəsi aparılmalıdır. Tumurcuqlarda cücərmə görünərsə, onda 4-5 gündən bir örtüyün bir tərəfi açılıb gün ərzində bir saat havalandırılmalıdır. Elə ki, inkişaf kütləvi hal aldı, göyərən gözlərdən 3-4 santimetr şivlər əmələ gəlib qalınlaşmağa başladı, bu zaman örtük tamamilə götürülür, becərmə tədbirləri davam etdirilir. Əmələ gələn cillər oduncaqlaşmaya başladıqdan sonra tinglər dibçəklərə köçürülür.

*Limon kollarına qulluq edilməsi, dibçəklərin saxlanması qaydaları.* Dibçəkdə olan ana kollar ilk yazda açıq hava şəraitinə çıxarılanda hər bir dibçəyə 5 qram universal gübrə (makro və mikro gübrələrin qarışığı) verilərək torpağı yumşaltmaq lazımdır. Aprel, may, iyun və oktyabr ayları ərzində gübrələmə su rejiminin tənzimlənməsi məqsədilə aprel, may ayları gün ərzində bir dəfə, sentyabr, oktyabr aylarında 2 gündən bir səhər vaxtlarında aparılmalıdır. Suvarma suyunun miqdarı kolun böyüklüyündən asılı olaraq 0,6 litrdən-1,5 litrə qədər tətbiq oluna bilər. Qış şəraitində suvarma 10-12 gündən bir aparılmalıdır.

Limon bitkisinin normal şəraitdə saxlanmasına xüsusi diqqət yetirilməlidir. Qış mövsümündə limon bitkisi işıqlı yerdə (şüşəbənd və ya istixana şəraitində) saxlanılmalıdır. Bu bitkinin həssaslığı nəzərə alınaraq mətbəxdə və ya otaqda saxlanılması məsləhət deyildir. Yay mövsümündə isə nisbətən kölgəli mühitdə saxlanılmalıdır.

*Xəstəlik, zərərvericilər və onlara qarşı mübarizə.* Bu bitkidə ən çox unlu şeh və qonur pas xəstəliklərinə təsadüf olunur. Xəstəliklərə qarşı mübarizə məqsədilə erkən yazda aprel ayından gec olmayaraq 0,4 faizli sneb, 0,2 faizli ridomil və ya 0,5 faizli bordo mayesi ilə çiləmə aparmaq məsləhətdir. Limon bitkisində müşahidə olunacaq zərərvericilər yastıcalar və mənənələrdir ki, onlara qarşı kimyəvi mübarizə tədbiri olaraq 0,2 faizli konfidor, 0,1 faizli aseti super, 0,1 faizli super alpa preparatlarından hər hansı biri ilə çiləmə aparılması məsləhətdir.

*Limonun əhəmiyyəti.* Limon meyvəsinin qabıq hissəsində 3-6 faizə qədər efir yağı olur ki, bunu da limon meyvəsinin qabıqlarından xüsusi aparatda sıxmaq üsulu ilə alırlar. Alınan limon yağı maye halda olub, xoşətirli iyə malikdir. Onun tərkibinin 90 faizini niterpen-limonen adlı ətirli maddələr, 3-6 faizini isə xoşətirli olan sitral aldehidi təşkil edir.

Limon qələvi elementlərlə zəngindir. Bundan başqa, onun tərkibində 8 faizə qədər üzvi turşular, 3 faizə qədər şəkərlər, azotlu maddələr, mineral maddələr (kalium, mis), A, VI, V2, Z, S vitaminləri, fitosidlər və sair var. Limonun qabıq və yarpaqlarında efir yağları mövcuddur. Onun təzə sıxılmış şirəsi C vitamini ilə zəngindir, lakin əksər hissəsi açıq havada tez dağılır. Limonun tərkibində R vitamini də var. İnsan orqanizmində onun qıtlığı qanaxmalara, ayaq ağrılarına, dərialtı qansızmalara, ümumi zəifliyə gətirib çıxara bilər. Bu vitamindən damar şişməsində və tropik yaralarına qarşı dərman kimi istifadə edilir.

Tibb elminə 500-dən çox virus məlumdur ki, onlardan 45-nə limon təsir edir. Buna görə də limon şirəsi virus xəstəlikləri ilə mübarizədə birinci vasitədir.

Son illərdə limon yağından sitral aldehidi alınır. Ondan 2-3 faizli spirtli məhlul şəklində hipertoniya xəstəliyinin müalicəsində damcı şəklində istifadə edilir.

Limon meyvələrinin şirəsində 8-9 faiz limon turşusu da vardır. Buna görə bir sıra ölkələrdə limon meyvələrindən sənayedə tibb üçün limon turşusu istehsal olunur. Bu turşudan natrium-sitrat preparatı hazırlanır ki, bu da qanköçürmədə donor qanını konservləşdirmək məqsədilə işlədilir. Limonun meyvələri, eyni zamanda P vitamini ilə də zəngindir. Bu vitamin limon meyvələrinin qabıq hissələrində daha çox olur. Odur ki, limonlu çayın çox içilməsinin böyük müalicəvi əhəmiyyəti vardır. Limon həm də bakterisid təsirə malikdir. O, angina və avitaminoz xəstəliklərinə qarşı effektli vasitədir.

**Əsgər HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri***

## Növbəti maarifləndirici tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə "Milli adət-ənənələrimiz" mövzusunda keçirilən növbəti maarifləndirici tədbiri xidmətin əməkdaşı Şəhanə Seyidova açıb. Bildirib ki, bu gün muxtar respublikamızda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları yüksək səviyyədə qorunur, müraciətlərinə vaxtında baxılır, onların Naxçıvanın tarixi, mədəniyyəti və milli adət-ənənələri ilə daha yaxından tanışlığı təmin etmək məqsədilə maarifləndirici tədbirlər təşkil edilir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin əməkdaşı Əli Rzayev "Milli adət-ənənələrimiz" mövzusunda çıxış edərək bildirib ki, minillər boyu formalaşan və Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu göstərən əvəzedilməz adət və ənənələr millətimizin keçmişi, bu günü və gələcəyi arasında sarsılmaz bir mənəvi körpü rolunu oynayır. Dünyanın ən qədim xalqlarından olan azərbaycanlılar özünün zəngin milli, əxlaqi və mənəvi dəyərləri ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr veriblər.

Çıxışda müstəqillik illərində muxtar respublikamızda milli dəyərlərimizin, adət-ənənələrimizin bərpası, qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində görülən mühüm işlərdən bəhs olunub.

Tədbirdə milli adət-ənənələrimizdən bəhs edən videoçarx nümayiş olunub. Sonra tədbir iştirakçılarının "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə ekskursiyası təşkil edilib.

**Nail ƏSGƏROV**

## Multikultural ənənələrin təbliğində gənclərin rolu

Tumbul Kənd Mərkəzində Naxçıvan Şəhər İcra Hakimiyyətinin Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyasının təşkilatçılığı ilə keçirilən tədbirdə İcra Hakimiyyəti Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri İsmayıl Gülməmmədov, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin böyük məsləhətçisi Sabir Xəlilov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı Orxan Məhərrəmov, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Naxçıvan şəhər "Came" məscidinin axundu Nəbi Salahov müxtəlif mövzularda çıxışlar ediblər.

Bildirilib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən multikulturalizm siyasəti bu gün öz bəhrələrini verir. Ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda multikultural dəyərlər yaşadılır və inkişaf etdirilir.

Qeyd olunub ki, bu prosesdə Azərbaycan gəncliyinin rolu da danılmazdır. Gənclik qloballaşan dünyamızda multikultural dəyərlərin yaşadılmasında, onların təbliğində və inkişafında əlindən gələni əsirgəmir.

Vurğulanıb ki, qloballaşma prosesi dünyaya inteqrasiyaya, həmçinin müasir dövrün tələblərinə uyğun inkişafa yol açmaqla bərabər, həm də milli və mənəvi dəyərlərin aşınmasına da öz təsirini göstərir. Xüsusilə də gənclik bu təsirlərdən qorunmalı, onlar milli dəyərlərimizə sadiq ruhda tərbiyə olunmalıdırlar.

Tədbirdə gənclərin sualları cavablandırılıb.

**Qafar QƏRİB**

## *"Şahin"* hərbi-idman oyununda qalib komandalar müəyyənləşib



*Naxçıvan şəhər tam orta məktəblərinin komandaları arasında "Şahin" hərbi-idman oyunu keçirilib.*

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Əlahiddə Ümumqoşun Ordu, Təhsil Şöbəsi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Naxçıvan Şəhər İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 10 tam orta məktəbin komandası mübarizə aparıb.

Hərbi-idman oyununda komandalar sıra hazırlığı, darağa patron doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəş açmaq, fiziki hazırlıq, manelərin dəf olunması, mülki müdafiə hazırlığı və qərargah çadırının qurulması mərhələləri üzrə öz qüvvələrini sınayıblar.

Yarışın yekun nəticəsinə əsasən 1 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüb. 16 nömrəli tam orta məktəbin komandası ikinci, 9 və 14 nömrəli tam orta məktəblərin komandaları isə üçüncü olublar.

Sonda qalib komandalar təşkilatçıların diplom, fəxri fərman və kubokları ilə mükafatlandırılıblar.

Qeyd edək ki, I və II yerlərin qalibləri olan 1 və 16 nömrəli tam orta məktəblərin komandaları aprel ayında keçiriləcək Naxçıvan Muxtar Respublika zona birinciliyində Naxçıvan şəhərini təmsil edəcəklər.

**Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə hansı məsuliyyət nəzərdə tutulub?*

**Cavab:** Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinə əsasən tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə əlli manat məbləğində cərimə edilir. Həmçinin yetkinlik yaşına çatmayanlara tütün məmulatı almaqla, verməklə, tütün məmulatından istifadəni təklif və ya tələb etmək yolu ilə onların tütündən istifadə prosesinə cəlb edilməsinə görə yüz manat məbləğində cərimə edilir. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilən yerlərdə (tütün çəkmək üçün təşkil edilmiş xüsusi yerlər istisna olmaqla) tütün çəkilməsinin qarşısının alınmamasına görə vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər isə min iki yüz manat məbləğində cərimə edilirlər.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

***İtmişdir***

Şərur rayonu, Çomaxtur kənd sakini Ələkbərov Bəhrəm Qəzənfər oğlunun adına verilmiş 102013000460-10301 reyestr nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 198